# *Obliqat qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi*

***Ümumi məlumat***: "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsi, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli, 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.27-ci bəndi, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci bəndi; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli, 142 nömrəli qərarı ilə təsdiq edilmiş "Tibbi müayinə kartı" sisteminin tətbiqi qaydaları" əsasən Müxtəlif sahələrdə çalışan, işə daxil olarkən və sonradan dövri tibbi müayinədən keçməsi tələb olunan vətəndaşların (obliqat qruplar) keçdiyi müayinələr və müayinələrin nəticələri haqqında məlumatların istifadəçilər tərəfindən tibbi müayinə kartı sistemindən əldə olunması üçün Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin rəsmi portalı sayılan e-health.gov.az saytından e-xidmətlər menyusunda Obliqat qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi elektron xidməti yaradılmışdır.

***Xidmətin istifadə qaydaları***: Xidmətdən istifadə etmək üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin *sehiyye.gov.az* saytına, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin *e-sehiyye.gov.az* rəsmi saytına və yaxud Elektron hökümət portalına *e-gov.az* daxil ola bilərsiz. Daha sonra Səhiyyə Nazirliyinin təqdim etdiyi elektron xidmətlərdən "Obliqat qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi" elektron xidmətini seçmək lazımdır. (Şəkil 1)



| | |
|---|---|
| | verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 9 | İmmunoprofilaktika üzrə məlumatın verilməsi |
| 10 | İonlaşdırıcı şüa mənbələri ilə işlərə icazə verən sanitar-epidemioloji rəyin verilməsi |
| 11 | Mehmanxana və mehmanxana tipli obyektlər üçün sanitariya pasportunun verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 12 | Müəssisə rəhbərlərinə obliqat qrupuna daxil olan işçiləri barədə məlumatın verilməsi |
| 13 | Obliqat qrupa aid olan vətəndaşların işə buraxılma icazəsinin olması barədə SMS vasitəsilə xəbərdarlıq verilməsi |
| 14 | Obliqat qrupa aid olan vətəndaşların müayinə vaxtı barədə SMS xəbərdarlıq |
| 15 | Obliqat Qruplara aid vətəndaşlara müayinələrdən keçmələri barədə məlumatın verilməsi |
| 16 | Özəl tibb müəssisəsində narkotik və psixotrop maddələrin istifadəsinə razılıq məktubunun verilməsi |
| 17 | Prekursorların idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə məşğul olmağa xüsusi razılığın verilməsi (lisenziya) üçün müraciətin və sənədlərin qəbulu |
| 18 | Profilaktik peyvəndlərin vaxtı barədə SMS vasitəsilə xəbərdarlıq verilməsi |
| 19 | Qida məhsullarının daşınmasına icazə verən sanitariya pasportunun verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 20 | Radioaktiv maddə və materialların daşınması üsullarının və şəraitinin sanitariya qaydalarına uyğun olması barədə sanitar-epidemioloji rəyin verilməsi |
| 21 | Rentgen kabinetinin istismarına icazə verən sanitariya-epidemioloji rəyin verilməsi |
| 22 | Səhiyyə Nazirliyinə göndərilmiş sorğuların və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənilməsi |

*Şəkil 1.*

Açılan səhifədə iki bölmə yerləşdirilimişdir:

- Müayinə normativləri
- Keçdiyi müayinələr

Müayinə normativləri bölməsində ilkin müayinələr və dövrü müayinələrin siyahısı yerləşdirilmişdir.

Keçdiyi müayinələr bölməsində şəxsin cari tarixə qədər keçdiyi müayinələr haqqında məlumat yer alır. Burada vətəndaş aşağıdakı məlumatları əldə edə bilər:

- Müayinə adı
- Müayinə tarixi
- Müayinə tipi
- Müayinə nəticəsi

Azərbaycan Respublikası, Bakı şəhəri,

AZ 1022 akad. M.Mirqasımov küç. 1A

Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi

Tel: (+99412) 596 80 44, (+99412) 431 38 2

www.e-sehiyye.gov.az